Yazan
13.10.13 15:02 -

Cari ilin yanvar-sentyabr aylarında pərakəndə ticarət bazarında əhaliyə 13,9 milyard manatlıq və ya keçən ilin doqquz ayı ilə müqayisədə 9,6 faiz çox müxtəlif istehlak malları satılmışdır.

Dövlət Statistika Komitəsindən AzərTAc-a bildirmişlər ki, istehlak mallarının 51,9 faizini ərzaq, 48,1 faizini qeyri-ərzaq malları təşkil etmiş, qeyri-ərzaq məhsullarının xüsusi çəkisi 4,1 faiz bəndi artmışdır.

Hesabat dövründə elektron pərakəndə ticarət dövriyyəsinin həcmi 2012-ci ilin eyni dövrünə nisbətən 1,7 dəfə artaraq 1,8 milyon manat təşkil etmişdir.

Əhali onlayn rejimi vasitəsilə sifariş verdikləri istehlak mallarının 84,7 faizini hüquqi, 15,3 faizini fiziki şəxslərin ticarət şəbəkələrindən almışdır.

Elektron ticarət dövriyyəsinin 91,3 faizini qeyri-ərzaq malları təşkil etmişdir.